

*İsmayıl MƏRCANLI İMANZADƏ*

## ANA VƏTƏN SƏNİNDİR

*Ulu Tanrıdan cəmi şəhidlərimizə qəni-qəni rəhmət diləyirəm!*

Şəhidim, əhsən sənə,
Vətənə bəxş etdiyin
Zəfərin nə gözəlmiş!
Yurd amalınla birgə
Şəhid ucalığından
Tanrının dərgahına
Səfərin nə gözəlmiş!

Könlümüzü oxşadı
Yenilməz hünərindən
Soraq verən hər anın.
Gəzdi dildə-ağızda
Torpağın sinəsinə
Al qanınla yazdığın
Qəhrəmanlıq dastanın...

Bu müqəddəs savaşda
Düşmən bağrı çatladan
Cəsarətinə alqış!

Nəsillərə nümunə –
Ülvi Vətən eşqinə,
Saf niyyətinə alqış!

Şəhidim, ölümünlə
Dönüb ölümsüz oldun,
Qazandığın bu halal
Şöhrət, ad-san sənindir!
Haqqın var zaman-zaman
Əbədi yaşamağa,
İndi hamıdan qabaq
Uğrunda can verdiyin
Qarabağ, Ana Vətən –
Azərbaycan sənindir!

## DÜNYA BİR OVUC BOYDADIR

Gül nəmərdi, çiçək şabaş,
Göz dağıdır quruya yaş.
Yamaca sancılan sal daş
Qayanın "qılçı" boydadır.

Yal-yamacda çəmən xalı,
Meh sübhün qanadı-qolu.
Payızın dumanlı yolu
Bir durna köçü boydadır.

Xeyir ilə şər qarışıq,
Dağların "alnı" qırışıq.
Zülmətdə közərən işıq
İynənin ucu boydadır.

Bağlancaq ömrün kitabı,
Verməlisən son hesabı.
Sorğu-sual, gor əzabı
Hər kəsin suçu boydadır.

Anlar minib çapır atın,
Öz hökmü var hər saatın.
Dünya sonsuz kainatın
Ovcunun içi boydadır.

## QƏDİMƏM, KÖHNƏYƏM...

Tək bircə üzüm var, bir sir-sifətim,
Təzə deyiləm haa... köhnəyəm, lələ!
Sunbül ətirlidir arzum-niyyətim,
Halal söz dolusu təknəyəm, lələ!

Ağlımı-huşumu girləyir başım,
Yel kimi hər səmtə əsən deyiləm.
Təkcə bəxtimlədir cəngim-savaşım,
Heç kimin yolunu kəsən deyiləm.

Buludtək dolmuşam bəzən bir anda,
Qəfildən alışıb sönməyim də var.
Bir nadan rəddimi tapdalayanda
Sıyrılan qılınca dönməyim də var.

Kimsə dolaşanda ayaqlarıma,
Demirəm zülmətdə batıb getmişəm.
Qanmazla dilləşmək gəlib arıma,
Səbrimlə başımı qatıb getmişəm.

Yoxdur çörəyimin duzu əzəldən,
Heç kimi nə qovub, nə daşlamışam.
Nə vaxtsa üzümə ağ olanı mən
Allah xatirinə bağışlamışam.

Kövrək ürəyimə yatmaz hər yetən,
Elə bilməyin ki, dili acıyam.
Bir qərib məkanda təzədən bitən
Sinəsi yaralı bar ağacıyam...

Yurdum viran qalıb... sızlayır dilim,
Nə fərli komam var, nə dəyəm, lələ!
Haqdan üzülməyib yaxşı ki əlim,
Suları dumduru dəhnəyəm, lələ!

## TEZ YANSAN, TEZ SÖNƏRSƏN

Hara qaçırsan belə,
Nə yaşın var ki hələ?
Ərimə gilə-gilə –
Buz belə olmur axı!

Hər qəlbin öz səsi var,
Yaxası, düyməsi var.
Yazın yaz vədəsi var –
Yaz belə olmur axı!

Ucalıqdan enmə gəl,
Öz yolundan dönmə gəl.
Tez alışıb sönmə gəl –
Naz belə olmur axı!

## YAMANCA KÜR İMİŞSƏN HA...

Xoş sözdür yadında qalan,
Dilinə yatmayıb yalan.
Deyəsən dili lal olan
Gizli bir sirr imişsən ha!

Hələ bəxtin ötməz gendən,
Çəkinmirsən səsdən-ündən.
Xəyalında əzəl gündən
Sevgiylə bir imişsən ha!

Halallıq ismətin-həyan,
Yad baxışlar sənə ayan.
Yetənin əli çatmayan
Saf inci – dürr imişsən ha!

Axı, nədir ki günahın,
Köksünə sığmayır ahın?
Bir dili yanmış bədxahın
Gözündə tir imişsən ha!

Çatmısan ömrün yazına,
Hər söz yatmır avazına.
Dözmək çətindir nazına,
Yamanca "kür" imişsən ha!..

## ÖMÜRDÜ DƏƏ… YAŞAYIRAM

Əzəlindən, axırından halıyam,
İç üzündən, paxırından halıyam.

Gəlirindən, çıxarından halıyam –
Tərifləyib satası ki deyiləm!

Ürəyimə yol tapmayıb hər dinən,
Nə sirrim var bölüşmüşəm mərdinən.
Doğulandan qol-boyunam dərdinən –
Dönük bəxtin butası ki deyiləm!

Gedən getdi… vay halına qalanın,
Tamah dişi çox itidir talanın…
Dili pəltək, gözü qıpıq yalanın
Kölgəsində yatası ki deyiləm!

Gizli-aşkar ötən anlar çox yeyin,
Ümu-küsü uşaq kimi ərköyün.
Boz sifətli məzəmmətin, gileyin –
Zülmətində batası ki deyiləm!

Boş xülyalar solğun üzlü saçaqmış,
Xatirələr tüstülənən ocaqmış.
Yamanlığın bir ayağı qaçaqmış –
Ha qovsam da, tutası ki deyiləm!

Mənimkidir yaxşısı da, pisi də,
Canımdadır tüstüsü də, hisi də.
Çox şirindir avandı da, tərsi də –
Taleyimin xətası ki deyiləm!..

Nə nisgilin köləsiyəm, nə ahın,
Ətəyindən tutmamışam günahın.
Şairliyim töhfəsidir Allahın –
Sözə haram qatası ki deyiləm!

Tanıyıram, həm sevincdir, həm qəhər,
Həyat ona gah bal qatıb, gah zəhər.
Ömürdü dəə, yaşayıram birtəhər –
Tapdalayıb atası ki deyiləm!

***Mingəçevir şəhəri***